

# *Hacı Firudin SÜLEYMANOĞLU-90*

Hörmətli Hacı Firudin müəllim!

Sizi - 90 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirik.

Siz 1 iyul 1934-cü ildə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Şahtaxtı kəndində anadan olmusunuz. 1953-cü ildə Zərifə Əliyeva adına Şahtaxtı kənd orta məktəbini bitirib, 1954-cü ilin oktyabrından 1957-ci ilin noyabrınadək Kiyev şəhərində hərbi xidmətdə olmusunuz. İlk əmək fəaliyyətinə 1960-cı ildə Şahtaxtı kəndində Hüseyn Cavid adına sovxozda başlamısınız. 1968-ci ilin mart ayından 1971-ci ilin oktyabr ayına qədər SSRİ və İran İslam Respublikasının Araz çayı üzərində tikdirdikləri "Azərhidrotikinti" idarəsində baş mühasib, 1972-ci ilin fevralından 1977-ci ilin noyabr ayınadək "Arpaçayhidro" tikinti idarəsində böyük maliyyəçi-iqtisadçı vəzifəsində çalışıbsınız.1979-cu ilin aprel ayından 1981-ci ilin aprel ayınadək Naxçıvan şəhər Stadionunun direktoru olmusunuz.

Hörmətli Hacı Firudin müəllim!

Siz sonralar Naxçıvan təkrarxammal tədarükü kontorunun direktoru (1981-1983), Naxçıvan Şərab zavodunun baş mühasibi (1989-1996) vəzifələrində işləmisiniz.1996-cı ilin fevralında qocalığa görə təqaüdə çıxıbsınız.

Siz 2013-cü ilin mart ayından 2017-ci ilin noyabr ayınadək Naxçıvan şəhər Veteranları Təşkilatının sədri işləyibsiniz. 2017-ci il noyabr ayından Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq Mühafizə Orqanları Veteranları Şurasının sədrisiniz.

1995-ci ilin oktyabr ayından Yeni Azərbaycan Partiyasının üzvüsünüz.

Hörmətli Hacı Firudin müəllim!

Sizin əməyiniz dövlətimiz tərəfindən yüksək qiymətləndirilib.

Siz "Rəşadətli əməyə görə" nişanı (1980), "General Səməd bəy Mehmandarov" yubiley medalı. (Azərbaycan Respublikası Veteranları Təşkilatı tərəfindən-2017), Azərbaycan Respublikası Veteranları Təşkilatının 30 illiyi" yubiley medalı (2018), "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı (27 may 2019) ilə təltif olunmusunuz.

Siz uzun illərdir ki, bədii yaradıcılıqla məşğulsunuz. Azərbaycan Yazıçılar Birliyinin (2005), Naxçıvan Yazıçılar Birliyinin (2012) üzvüsünüz. Şeir və poemalardan ibarət "Tək iydə" (2002), "Hərənin öz ağlı" (2003), "Görün ki, bu nə sevdadır" (2004), "Həsrətin sahilində" (2005), "Dözüm" (2007), "Bir ömrün izi" (2011), "Kəhrizlərin pıçıltısı" (2013), "Babamla söhbət" (2019), "Xoş o kəsin halına ki..." (2020) kitablarınız oxucular tərəfindən rəğbətlə qarşılanıb.

Siz həm də "Qızıl qələm" mükafatı laureatısınız.

Hörmətli Hacı Firudin müəllim!

Sizi 90 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, sizə cansağlığı, səmərəli fəaliyyətinizdə yeni uğurlar arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**